# Özbəkistandakı soydaşlarımız Azərbaycan Prezidentinin qətiyyətinə və ordunun gücünə arxalanır



Bu gün bütün dünya azərbaycanlılarının diqqəti Azərbaycana dikilib. Milyonlarla həmvətənlərimizin qəlbi Vətən, Azərbaycan eşqi ilə döyünür. Təmas xəttindəki erməni təxribatları qürbətdə — Özbəkistanda yaşayan azərbaycanlıların qəzəb, nifrət və hiddətinə səbəb olub. Bir sözlə, hamı diaspor təşkilatı ətrafında sıx birləşib. Hamının yekdil fikri belədir: Azərbaycan xalqının haqq səsinə cavab verməli, qüdrətli Azərbaycan ordusuna dəstək və dayaq olmalı!

Özbəkistandakı soydaşlarımız qürur hissi keçirir ki, Azərbaycan nizami orduya malikdir, bu, ümummilli liderimiz, dahi şəxsiyyət Heydər Əliyevin gərgin əməyinin bəhrəsidir. Prezident, Ali Baş Komandan İlham Əliyev ulu öndərin ideyalarını layiqincə yerinə yetirərək ordu quruculuğu sahəsində səylərini daha da artırıb. Azərbaycan Ordusunun bugünkü durumu, maddi-texniki bazası, müasir silahlarla təminatı, ən əsası – şəxsi heyətin döyüş ruhu, mənəvi ovqatı və ordu ilə xalqın monolit birliyi bunu deməyə əsas verir ki, ordumuz işğal altında olan torpaqlarımızı azad etməyə tam hazırdır.

Biz Özbəkistandan Azərbaycanda baş verən erməni təxribatını diqqətlə izləyirik. Vətənə dönüb silaha sarılaraq işğal altında olan əsgərlərimizi erməni daşnaklarından azad etməyə tam hazırıq.

Aprelin 2-nə keçən gecə Azərbaycanın bütün cəbhə boyu mövqelərinin və təmas xəttinə yaxın bir sıra yaşayış məntəqələrinin iriçaplı silahlar, minaatanlar, qumbaraatan və artilleriya qurğularından intensiv atəşə tutulması əvvəlcədən planlaşdırılmış aksiya olsa da mənfur düşmən qarşıya qoyduqları məqsədə nail olmamış və ciddi itkilər verərək geri çəkilmişlər. Azərbaycanın qəhrəman döyüşçüləri nəinki təxribatın qarşısını aldı, hətta daha əlverişli hərbi mövqelərə malik oldular. Bu gün təmas xəttində Azərbaycanın üstünlüyü daha da möhkəmləndi.

Aprelin 2-də Azərbaycan Respublikasının Prezidenti yanında Təhlükəsizlik Şurasının iclası keçirildi.

Həmin tədbirdə çıxış edən Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin böyük qələbənin başlanğıcı münasibətilə xalqımıza və əsgərlərimizə ünvanlandığı təbrik Özbəkistandakı həmvətənlərimizin yadından heç vaxt çıxmayacaq.

Bəli, Azərbaycan sözügedən münaqişədə səbir, dözümlülük, konstruktivlik göstərir. İyirmi ildən artıq bir dövrdə atəşkəs rejimində yaşayan Azərbaycan yenə də məsələnin sülh yolu ilə öz həllinin tapmasının tərəfdarıdır.

Özbəkistanda yaşayan hər bir azərbaycanlı Dağlıq Qarabağ münaqişəsinin həllində Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin yanında olmağı, Vətənimiz Azərbaycanın düşmən tapdığından azad olunması üçün lazımi tədbirlərdə yer almağı özünə borc bilir. Vətəndən uzaqlarda məskunlaşmasına baxmayaraq, mütəşəkkil və çevik bir diaspor ordusu Ali Baş Komandanı dəstəkləyir və həmişə cənab Prezidentin yanındadır. Daşkənddən, Səmərqənddən, Buxaradan Azərbaycana, qüdrətli Azərbaycan ordusuna salamlar olsun!

**Mobil MƏMMƏDOV,**
**Özbəkistan Azərbaycanlıları Milli Mədəniyyət Mərkəzinin sədri, "Dostluq" ordenli.**